

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 243 (21.653)

21 dekabr 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik




# Hər şeyin əvəzi ödəniləcək

## Əzm və səbir – problemi aradan qaldırmağın gücü bundadır

*Bakıdan Naxçıvana hava yolu ilə getmək olar. Təyyarənin salonunda bütün yerlər tutulub, sərnişinlər arasında həm uşaqlar, həm də yaşlılar var. Nə etmək olar? Avtonəqliyyatla yol daha uzun və çətindir: istər İran, istərsə də Türkiyə vasitəsilə. Artıq üçüncü onillikdir ki, Azərbaycan torpaqlarının 20 faizi ermənilər tərəfindən işğal olunandan bəri, vəziyyət belədir. Bu, kimə lazım idi? "Yalnız bizə, sadə adamlara, lazım deyil", – Naxçıvan Muxtar Respublikasında yaşayan ahıllar belə deyir. Bizim hekayəmiz Naxçıvanda insanların necə yaşaması haqqındadır.*

### Muzeylərin mənası haqqında

Naxçıvanda belə bir adət var: muxtar respublikaya gələn qonaqlara Heydər Əliyev Muzeyini ziyarət etməyi təklif edirlər. Əvvəlcə, sözün düzü, tərəddüd etdim. Axı biz Naxçıvan Muxtar Respublikasına təhsil və elmlə tanış olmaq üçün gəlmişik. Lakin muzeydə olduqdan sonra bu nəticəyə gəldim ki, əbəs deyilmiş. Əslən bu torpaqdan olan ümummilli lider Heydər Əliyev SSRİ ayrı-ayrı dövlətlərə parçalandıqdan sonra bura qayıtmış, Onun Naxçıvan əhalisinin dəstəyi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanın dirçəliş dövrü başlanmışdır.

Muzeyin ekspozisiyasında, əsasən, şəkillər, kitablar, sənədlər, səs yazılarından ibarət çıxışlar, şəxsi əşyalar və ulu öndər Heydər Əliyevə verilmiş hədiyyələr nümayiş olunur. Nədənsə, xatirimdə Onun Puşkin küçəsində yerləşən evdən çıxarkən çəkilmiş şəkli qaldı. Dövlət işlərindən ayrılmış, xüsusi təqaüdçü Heydər Əliyev doğma diyara qayıdıb bir neçə vaxt bacısı evində – 1923-cü ildə anadan olduğu evdə yaşadı. O, dəmir yolunda fəhlə işləyən Əlirza kişinin səkkiz övladından dördüncüsü idi. Biz həmin evin yanında idik. Bizim bütün sovet xadimlərimiz özlərinin və qohumlarının firavan həyat yaşamasında böyük nailiyyət əldə etmişdilər. Heydər Əliyev də sovet dövrünün ən nüfuzlu siyasətçilərindən biri idi. Lakin dövr dəyişəndə O, ata evində yaşadı.

Dahi lider Heydər Əliyevin muzeyin qarşısında möhtəşəm abidəsi var. Keçid dövründə, hər şey dağılanda, keçmişin üzərindən xətt çəkiləndə mövcud olanlar atəşə məruz qalırdı, xeyir və şər, dost və düşmən anlayışları bir-birinə qarışırdı. Məhz O, bu ehtirasları sakitləşdirməyə nail oldu, bu torpağı Azərbaycan üçün qoruyub saxladı. Baxmayaraq ki, Naxçıvan eksklava dönmüşdü. Heydər Əliyev muxtariyyətin o qədər düzgün inkişaf vektorunu yaratmışdı ki, bu indi də hiss olunur: burada milli ənənələri itirməyiblər, onları hətta daha da dirçəldib, təkmilləşdiriblər. Heydər Əliyev Naxçıvana gələndə burada tam çaşqınlıq və qarmaqarışıqlıq hökm sürürdü. Hazırda isə muxtar respublika iqtisadiyyatı enerji daşıyıcıları baxımından müstəqildir. Naxçıvanda Azərbaycan Milli Elmlər Akademiyasının bölməsi fəaliyyət göstərir, Naxçıvan Dövlət Universitetinə isə Asiya, Afrika, Avropa və MDB ölkələrindən gənclər təhsil almağa gəlirlər...

Bu gün SSRİ dövründə anadan olmuş insanlardan soruşsaq Heydər Əliyevin taleyi haqqında, görəsən, çoxmu bilirlər? Ən yaxşı halda Onun Azərbaycan Kommunist Partiyasının birinci katibi, postsovet dövrlərində isə Azərbaycanın Prezidenti olduğunu xatırlayacaqlar. Xüsusi qabaqcıllar isə Onun əkskəşfiyyatda çalışdığını və SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin general-mayor rütbəsinədək qalxdığını, Azərbaycanda korrupsiyaya qarşı mübarizə apardığını deyəcəklər. Məhz bu keçmiş, yəni dövlət qulluğu sahəsində böyük təcrübə Heydər Əliyevə öz Vətənini qoruyub saxlamaqda çox kömək oldu.

Heydər Əliyevin 1990-cı ildə Moskvadan Bakıya qayıdışına heç də hamı sevinmədi. Ölkədə hakimiyyət uğrunda çoxdan mübarizə gedirdi. Xatırladırdılar ki, keçmiş partiya xadimlərinin şəxsi təhlükəsizliyinə təminat vermirlər. Bunu başa düşən Heydər Əliyev doğma Naxçıvanına gəldi. Burada da ixtilaf, nizamsızlıq hökm sürürdü: artıq bir il idi ki, muxtar respublika Ermənistan tərəfindən Qarabağ məsələsinə görə blokadaya alınmışdı. İttifaq hakimiyyəti bu mübahisənin qanuni həllində lazımi əməli köməklik göstərmirdi və buna cavab olaraq həlqışda Naxçıvan MSSR-in Ali Sovetinin fövqəladə sessiyasında artıq SSRİ-nin tərkibində qalmaq istəmədiyini və özünü müstəqil elan etdiyini bəyan etdi.

Naxçıvana gələn Heydər Əliyevi qarşılamağa 80 mindən çox insan gəlmişdi. İnsanlar Heydər Əlirza oğluna güclü rəhbər kimi ümid bəsləyir və hakimiyyətin Ona verilməsini tələb edirdilər. Hakimiyyəti isə, məlumdur ki, vermirlər, alırlar.



Heydər Əliyev Naxçıvanın 17 noyabr 1990-cı ildə Azərbaycanın tərkibində müstəqil muxtar dövlətə – Naxçıvan Muxtar Respublikasına çevrilməsi üçün bütün səlahiyyətini, diplomatiyasını, uzaqgörənliyini, bacarığını və qabiliyyətini göstərdi. Naxçıvan Ali Məclisi qanunvericiliyə uyğun olaraq bu haqda qərar qəbul etdi. Heydər Əliyev özü isə əvvəlcə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, sonra isə Sədri seçildi. Bununla o, özünü, sadəcə, siyasi arenaya qaytarmadı, Azərbaycanın bu torpağında baş verənlərə görə məsuliyyəti öz üzərinə götürdü. İlk növbədə, ona Ermənistanla olan münaqişəni, heç olmazsa, dondurmaq, əsirlikdə olan həmvətənlərini vətənə qaytarmaq; ikincisi isə – Naxçıvanın blokada məngənəsini zəiflətmək, yəni insanları vərdiş olunmayan şəraitdə yaşamağa alışdırmaq tələb olunurdu.

Muzeyin vitrinində o vaxtın bir neçə əşyası var: Moskva və Bakı ilə təcili əlaqə saxlamaq üçün xidməti telefon – zəif olsa da, əlaqə saxlanılırdı; neft lampası – Naxçıvan keçmiş İttifaqdan, yəni Ermənistan ərazisindən gələn elektrik enerjisindən məhrum edilmişdi, işıq yox idi. Heydər Əliyev isə gecəyarısınadək işləyirdi. Buradaca bir balaca şeirlər məcmuəsinə oxşar əlaqəli mətnli kitabça var... Azərbaycanlı həmkarım dedi ki, "Bu, Qurandır". O zaman keçmiş təhlükəsizlik komitəsinin general-mayorunun və Azərbaycan Kommunist Partiyasının birinci katibinin qəlbində nələr baş verirmiş ki, Quran onun masaüstü kitabı olmuşdu?

O vaxtlar Naxçıvan Muxtar Respublikası 50 meqavat həcmində elektrik enerjisi alırdı. İndi isə paytaxtdan bir az aralandıqda dağın başında Naxçıvanın elektrik enerjisinə olan ümumi tələbatının 20 faizini təchiz edən günəş batareyalarının örtücüsünü görmək olar. Üstəlik, burada hidroelektrik stansiyası tikilmişdir. Bir sözlə, Naxçıvan çoxdan elektrik borcunu qaytarmış, özünü elektrik enerjisi ilə təchiz etmiş, xaricə enerji satmaqla vəsait qazanır... Energetika isə regionun inkişaf səviyyəsinin, onun perspektivlərinin göstəricisidir. Naxçıvan Muxtar Respublikası özünü ərzaqla da tam təmin edir...

### Real müstəqillik belədir

Muzeydə Heydər Əliyevin böyük insanlar toplusu qarşısında çıxış edərkən çəkilmiş şəkilləri də var. Azərbaycan Respublikası Milli Məclisinin Elm və Təhsil Komitəsinin sədri, əslən Naxçıvandan olan İsa Həbibbəyli danışırdı ki, o çətin dövrdə Heydər Əliyevi bütün xalq dəstəkləyirdi. 1990-cı ilin əvvəllərində bütün Azərbaycanı parçalanmaqdan qorumaq üçün xalq ona müraciət etdi. 90-cı illərdə əhalisi dözümlü və zəhmətkeş olan ölkədə bir çox iğtişaşlar baş verirdi. Onları hazırlıqsız siyasətçilərin acizliyi, əksər hallarda isə hakimiyyətə qurşanmış fırıldaqçıların ambisiyaları provokasiya məqsədilə təhrik edirdi. Heydər Əliyev bunu görürdü və təcrübəli siyasətçi kimi adamlarda apatiya (süstlük və fəaliyyətsizlik) əhval-ruhiyyəsinin yüksəldiyini, onların həyat səviyyəsinin get-gedə daha da çətinləşdiyini başa düşürdü. Buna görə də Azərbaycan Respublikasının ovaxtkı prezidenti 1993-cü ilin may ayında ona kömək üçün müraciət edəndə, ulu öndər dərhal Bakıya gəldi və faktiki olaraq həm indiki vəziyyətə görə, həm də Azərbaycanın gələcəyinə görə məsuliyyəti öz üzərinə götürməyə məcbur oldu.

### Ağ günlü adamlar

Naxçıvanda bu gün səliqə-sahmanlı şəhər təəssüratı yaradılır. Mərkəzdəki binalar müasirdir. Burada gül-çiçək daha çoxdur. Hər yerdə küçələr təmizdir. İndi Naxçıvan Muxtar Respublikasında şəhərlər arasında yol boyunca cərgə ilə meyvə ağacları əkilmişdir. Tinglərin ətrafını isə çiçəklər bəzəyir. Bir sözlə, Naxçıvanın hər yerində yaxşı qulluq görmüş ərazilər, səliqə-sahman hiss olunur. Bizə "İməcilik keçirildiyini" söylədilər, özümüz də bunun şahidi olduq.

Naxçıvan Muxtar Respublikasının əhalisi isə son on beş ildə 12 faiz artmışdır. Naxçıvanda gənclər xaricə üz tutmayıb. Çünki onlar işlə təmin olunur. Kiçik şəhərlərdə və qəsəbələrdə əhalinin məşğulluğu, əsasən, ticarət və xidmət sahələri hesabına təmin olunur. Valideynlər övladlarının ali məktəb bitirmələrini arzulayırlar. Naxçıvan Muxtar Respublikasında 3 ali təhsil ocağı var. Hamısı da paytaxtdadır. Gələn il Naxçıvan Dövlət Universitetinin 50 yaşının tamam olduğunu, onun Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi yarandığını bilərək, biz universitetlə tanış olmaq istəyimizi söyləmədik. Lakin hələ muzeydə olarkən İsa Həbibbəyli bizi inandırdı ki, "Orada heyrətlənəcəyiniz işlər var. Məsələn, siz 108 hektarlıq müasir kampus harada görmüsünüz?" Xatırlamağa çalışdıq: məşhur Kolumbiya universitetinin ərazisi 17 hektar, Moskva Dövlət Universitetinin – 205 hektar, lakin onlar paytaxtın bir çox rayonları arasında paylanmışdır. Burada isə hamısı bir yerdə? "Bir nöqtədə və 2014-cü ildə Naxçıvan Dövlət Universiteti Azərbaycanın ali məktəbləri arasında birinci yeri tutdu. Bu universitet bizim ölkəmizin qürurudur", – İ.Həbibbəyli söylədi.

Həftənin birinci günü səhər Naxçıvan Dövlət Universitetinə yollandıq. Ali təhsil ocağına yaxınlaşdıqda dövrümüzə görə adət etmədiyimiz geyimdə olan bir qrup gənclərlə rastlaşdıq. Bu gün nümayişmi var? – deyə soruşduqda məlum oldu ki, bu, Naxçıvan Dövlət Universitetinin tələbələrinin gündəlik geyim formasıdır. Necə də xoşdur, həm də qızlara bahalı zinət əşyaları gəzdirməmələri tövsiyə olunur. Çünki onlar məşğələlərdən diqqəti yayındırır. Yaxşı haldır ki, xarici tələbələr də bu qaydalara etiraz etmirlər. Universitetdə xarici tələbələrin sayı 300-ə yaxındır. Onlar Almaniyadan, İrandan, Rusiyadan, Türkiyədən, Banqladeşdən, Nigeriyadan, İraqdan, İndoneziyadan, Qazaxıstandan, Türkmənistandan və Cənubi Koreyadan gəlib təhsil alır. Bütövlükdə isə universitet tələbələrinin sayı 6 minə yaxındır.

***– "Yalnız təyyarə ilə gəlməyin mümkün olduğu" muxtar respublikada fəaliyyət göstərən ali təhsil ocağı onları nə ilə cəlb edir?***

– Təhsilin müasir texnologiyaları və şəffaflığı ilə, – Naxçıvan Dövlət Universitetinin rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Saleh Məhərrəmov söhbətə qoşulur. Biz artıq bilirik ki, rektor ixtisasca bioloqdur. 4 ildir ki, bu universitetin rektorudur, bundan əvvəl isə təxminən 20 il ali təhsil ocağında çalışmış, kafedra müdiri olmuşdur. Yəni universitetə daxildən bələddir.

– Bütün məqbullar, imtahanlar, dissertasiyalar üzrə verilən minimum imtahanlar da daxil olmaqla, indi onlayn sistemi ilə, elektron nəzarətlə verilir, – rektor izah edir. – Heç kəs imtahan verənə maneçilik törədə, yaxud ona köməklik edə bilməz, artıq insanlar birgə işləməyə alışmışlar.

Mən söz yaradıcılığının nə olduğunu anlayıram: Məsuliyyət – məsul işləmək, vicdan – vicdancasına anlayışını ifadə edir, bizim söhbətdə bunlar məni tamamilə qane edir. Aydındır ki, söhbət nədən gedir. Rektor isə davam edir: Bütün qərarları kompüter qeydə alır və dəyərləndirir, hər yerdə videokameralar quraşdırılmışdır. Bundan əlavə, həyata keçirilən tam nəzarət müəllimləri mühazirə və seminarlar üçün nəzərdə tutulmuş vaxtı boşuna keçirməməyə imkan verir.

Ardı 2-ci səhifədə





*– Deməli, geridə qalan tələbələrin xaric olunması faktı da artmışdır?*

– Xeyr, xaric edilənlər, demək olar ki, əvvəllər də heç olmamışdır. Məsələ burasındadır ki, qeyri-kafi qiymət alıb, ertəsi gün göndəriş götürüb kəsildiyi fəndən yenidən imtahan vermək olmaz. Tələbəni yenidən hazırlıq keçməyə saxlayır, beləliklə o, faktiki olaraq yenidən həmin kursu dinləyir və yalnız bundan sonra qiymətini düzəldir.

Bu gün Naxçıvan Dövlət Universitetində həyat informasiya-kommunikasiya texnologiyaları əsasında qurulur: bütün kafedralarda, bölmələrdə, şöbələrdə, fakültələrdə, rektorun kabinetində bütün sənədləşmələr elektron formada və müvafiq informasiya panelləri vasitəsilə aparılır. Bütün bunlar haradan əldə edilmişdir? Naxçıvan Dövlət Universitetinə ali təhsil ocağının tədris korpuslarında elektron təhsil şəbəkəsini və rəqəmsal multimediya infrastrukturunu layihələşdirən və quraşdıran Koreya agentliyinin beynəlxalq əməkdaşlıq üzrə Koica şirkətinin mütəxəssisləri kömək ediblər. Naxçıvan Dövlət Universiteti Cənubi Koreyanın Koica şirkətinin xidmətlərindən istifadə etmək hüququ üzrə keçirilən müsabiqədə qalib gəldi. Bu prosesə 3,5 milyon dollar həcmində vəsait qoyuldu. Nəticədə, indi universitetdə 350 kompüter dəsti quraşdırılmış, 12 auditoriya elektron masa ilə, 12 imtahan auditoriyası isə hər birində 29 kompüter yeri olmaqla təchiz edilmişdir. Bundan başqa, Naxçıvan Dövlət Universitetində 3 internet mərkəzi, telestudiya, tibb mərkəzi, elektron mətbəə, elektron kitabxana fəaliyyət göstərir. Müəllim korpusunun AMEA-nın İnformasiya Texnologiyaları İnstitutu ilə əməkdaşlığı güclü dərəcədə genişləndirilmişdir. Onlar birlikdə “elektron auditoriya” layihəsini gerçəkləşdirmiş, ölkə alimləri ilə əlaqələri möhkəmləndirərək aspirant və doktorantların, xüsusilə “İnformatika” mütəxəssislərinin hazırlığının təkmilləşdirilməsinə nail olmuşlar.

*– Aydındır ki, dissertantlar hazırlıqlı adamlardır, bəs kəndlərdən sizə daxil olan birinci kurs tələbələri rəqəmsal aləmi asanlıqla mənimsəyə bilirlərmi?*

– Naxçıvan Muxtar Respublikasında internet hər yerdə var. “Elektron Naxçıvan” muxtar respublikada 2005-ci ildən reallaşdırılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bütün elmlər namizədlərinə və elmlər doktorlarına öz doğma məktəblərində ayda bir dəfə dərs keçməyi tapşırmışdır. Kənd məktəblərində ən yeni texnologiyalar və tədris avadanlıqları tətbiq olunur. Beləcə, informasiya texnologiyalarından istifadə edən uşaqlar indi ali təhsil müəssisəsinə tam hazırlıqlı gəlirlər. Nəyisə bilmədikləri halda tələbə mühitində onları öyrənirlər. Artıq altıncı ildir ki, universitet ərazisində yüksək sürətli simsiz internet şəbəkəsi fəaliyyət göstərir. Bu, yeri gəlmişkən, beynəlxalq əlaqələrin həyata keçirilməsinə şərait yaradır. Naxçıvan Dövlət Universiteti dünyanın 80-dən artıq müxtəlif universitetləri ilə əməkdaşlıq haqqında müqavilə bağlamışdır.

*– Bu müqavilələr fəaliyyət göstərirmi?*

– Biz, əsasən, akademik mobillik xətti üzrə “Tempus” və “Erasmus Mundus” proqramlarında fəal iştirak edirik. Bu proqramlar sayəsində Avstriyanın, Litvanın, Gürcüstanın, Portuqaliyanın, İspaniyanın, Almaniyanın, Özbəkistanın universitetləri ilə əlaqə yaratdıq. Rusiyanın Penza Dövlət Universitetinin Rus dili və ədəbiyyatı ixtisası ilə və Uxtinski Dövlət Texniki Universiteti ilə əlaqələrimiz var. Rusiya ilə əlaqələrin genişlənməsinə şad olardıq. Türkiyə və İranla yaxşı əlaqələrimiz var. Artıq neçə ildir ki, Tibb və Baytarlıq fakültələrinin tələbələri bu dövlətlərin müvafiq klinikalarında təcrübə keçirlər. Mühəndis-memarlıq fakültəmiz Təbriz şəhərinin zavodları ilə, bioloqlarımız Mərənd şəhərinin bağçılıq təsərrüfatları ilə əməkdaşlıq edirlər. Gürcüstanın Ş.Rustaveli adına Batumi Dövlət Universitetində bizim gələcək arxeoloqlar və turizm üzrə mütəxəssislər təhsil alır.

Bu universitetə Heydər Əliyevin səxavətli əli və himayəsi ilə verilmiş 108 hektara qayıdaq. Burada tikilmiş tədris kompleksləri Ali Məclis Sədrinin ölkənin müstəqilliyinin təmin olunması sahəsində yüksəkixtisaslı kadrlara böyük əhəmiyyət verdiyinin parlaq təzahürüdür. Çünki bu məsələdə universitetin bəxti gətirmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun rəhbərliyi altında tikinti proqramı və universitet kampusunun inşası yüksək səviyyədə yerinə yetirilmişdir. Beləliklə, müasir və xoş təsir bağışlayan bütöv bir şəhərcik yaranmışdır. Hələ 1999-cu ildə Naxçıvan Dövlət Universitetində 1600 yerlik korpus ucaldılmışdır. Sonra isə 2000-ci ildə tibb tədris korpusu və xəstəxana, 2004-cü ildə elektron kitabxana, 2006-cı ildə Sosial idarəetmə və hüquq fakültəsi üçün 700 tələbə yerlik daha bir tədris korpusu istifadəyə verilmişdir. Daha sonra Memarlıq və mühəndislik, habelə Baytarlıq fakültələri üçün 1908-ci ildə tikilmiş binalar əsaslı surətdə yenidən qurulmuşdur. Bu binaların xarakterik fasadı saxlanılmış, daxili quruluşları isə tamamilə modernləşdirilmişdir. Açıqtipli idman bazası və Olimpiya-idman mərkəzi tikilmişdir. Bunların ardınca konservatoriya binası ucaldılmışdır. Bütövlükdə MDB məkanında bu binanın analoqu yoxdur. Burada hər bir yaradıcı qrup öz baxışlarını, konsertlərini keçirir, tələbə tamaşaları təşkil edir. Bu korpus universitetin mədəni mərkəzidir. Naxçıvan Dövlət Universitetində Sosial xidmət mərkəzi binası və Beynəlxalq münasibətlər və xarici dillər fakültəsi üçün də ayrıca tədris korpusu inşa olunmuşdur. Keçən ilin may ayında isə istismara təzə universitet klinikası qəbul edilmişdir. Burada Kardioloji və müasir Stomatologiya şöbələri xidmət göstərir... Biz klinikanın mərtəbələrini dolaşdıq. Kabinələrdə yapon avadanlığı, tələbələrin məşğələ keçmələri üçün rahat mebellər diqqətimizi cəlb etdi. Laboratoriyalar, palatalar, tədris sinifləri, növbətçi həkimlər üçün kabinə, əczaxana, rentgen və digər kabinələr hamısı bir binada cəmləşib... Biz məsləhətə gəlmiş ilk pasiyentləri gördük. Hal-hazırda İqtisad fakültəsi üçün yeni tədris korpusu tikilir.

Naxçıvan Dövlət Universitetinin tədris korpuslarına piyada deyil, avtomobillə getmək lazımdır. 450 tələbənin və aspirantın yaşadığı Tələbə evinə (prinsipial qaydada bu korpusu ümumi yataqxana adlandırmırlar) daxil olduqda bizim komandamızın başçısı – Moskva Dövlət Universitetinin sovet dövrünün məzunu ah çəkdi: “Tələbə ikən mən də belə yaşamaq istərdim!” O an mən düşündüm ki, Naxçıvan Dövlət Universitetinin başlıca cəhəti onun gələcəyə yönəlməsidir. Müasir vəziyyət – metodika, təchizat, yaraşmalar, tikintinin keyfiyyəti – vacibdir, lakin başlıcası bütün bunlardan nələrin əmələ gəlməsindən, ali təhsil ocağının ölkə üçün necə kadrlar verməsindən, universitetin onların hazırlıq səviyyəsinin yüksəklərə qaldıra bilməsindən və məzunların Naxçıvan Dövlət Universitetinin diplomu ilə fəxr etməsindən ibarətdir. İnanıram ki, hər şey yaxşı olacaq. Çünki yol düzgün seçilib: təhsilə və elmə, nəsillərin qarşılıqlı əlaqəsinə və xalq ənənələrinə söykənib.

**Yelizaveta PONARİNA**
**Fotolar Nikolay Stepanenkovundur.**
**Rusiya Elmlər Akademiyasının**
**“Poisk” qəzeti,**
**№ 49**
**09.12.2016**

# Təhsilə qayğı işıqlı gələcəyə xidmətdir

*Bu il də muxtar respublikada məktəb tikintisi diqqət mərkəzində olub*

***Muxtar respublikamızda bütün sahələrin inkişafı diqqət mərkəzindədir. Təhsilin inkişafına göstərilən böyük diqqət və qayğının nəticəsidir ki, bu sahədə qazanılan uğurlar ildən-ilə artır. Təhsil müəssisələri üçün yeni binalar tikilir, ümumtəhsil məktəbləri ən müasir informasiya və kommunikasiya texnologiyaları ilə təmin edilir. Bu tədbirlər paytaxt şəhərimiz Naxçıvandan tutmuş ən ucqar dağ və sərhəd kəndlərini əhatə edir.***



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyindən aldığımız məlumatda deyilir ki, belə tədbirlər başa vurmaqda olduğumuz 2016-cı ildə də davam etdirilib. Bu dövrdə 4598 şagird yerlik 13 tam orta məktəb, Ordubad Texniki Peşə və Sürücülük Məktəbi, Naxçıvan Dövlət Texniki Kolleci üçün bina tikilib, təmir olunub və ya əsaslı şəkildə yenidən qurulub. Hazırda Naxçıvan şəhərində 3 və 13 nömrəli, Şərur şəhər 2 nömrəli, həmin rayonun Çəmənli, Şahbuz rayonunun Kolanı kənd tam orta məktəbləri və Naxçıvan Şəhər Peşə Liseyi üçün binaların tikintisi və ya yenidən qurulması davam etdirilir.

Yaxşı cəhət kimi onu da qeyd edək ki, tikilən və ya əsaslı şəkildə yenidən qurulan bütün təhsil müəssisələri ən müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunur. Bu gün muxtar respublikanın ümumtəhsil məktəblərində 600-dən yuxarı elektron lövhədən və 3897 dəst kompüterdən istifadə edilir ki, onlardan da 411 kompüter və 40 elektron lövhə 2016-cı ildə istifadəyə verilib.

Bir neçə ildir ki, ölkəmizdə məktəblilərə pulsuz dərsliklər verilir. Muxtar respublikanın məktəbliləri bu qayğıdan 2016-cı ildə də bəhrələniblər. Belə ki, cari ilin avqust-sentyabr aylarında ümumtəhsil məktəblərinə 202 min 468 nüsxə, eyni zamanda məktəbəhazırlıq qruplarına cəlb olunmuş uşaqların pulsuz dərsliklərlə təminatı məqsədilə 11 min 754 nüsxə dərslik verilib.

Məlumatda o da bildirilir ki, 2015-2016-cı tədris ilində tam orta təhsil bazası üzrə məktəbi bitirən məzunlardan 14-ü qızıl, 13-ü isə gümüş medallara layiq görülüb. Həmin məzunlar göstərilən etimadı doğruldub, qəbul imtahanlarında onların 12-si 600-650, 15-i isə 650-700 arası bal toplayıb.

Bəhs olunan dövrdə XI sinfi bitirən 3138 məzundan 2469-u, yəni məzunların 78,7 faizi ali və orta ixtisas məktəblərinə sənəd təqdim edib. Qəbul imtahanlarında iştirak edən məzunlardan 1538-i, yəni sənəd verənlərin 60,3 faizi tələbə adını qazanıb. Abituriyentlərin 338-i imtahanlarda daha yüksək nəticə göstərərək 500-700 intervalında bal toplayıb. Bu da ali məktəblərə qəbul olanların 22 faizini təşkil edir.

Bəhs olunan dövrdə 567 nəfər orta ixtisas məktəblərinə qəbul olunub. Bunun da 315-i ümumi orta təhsil bazasından, 252-si isə tam orta təhsil bazasından olan məzunlardır. Məzunlardan 191-i xüsusi təyinatlı ali təhsil müəssisələrinə sənəd verib, onlardan 63-ü müvafiq ixtisaslara qəbul olunub.

Muxtar respublikada hərbi təhsilə maraq ildən-ilə artır. Cari ildə Heydər Əliyev adına Hərbi Liseyin məzunlarından 199 nəfəri ölkəmizin müxtəlif ali hərbi məktəblərinə qəbul edilib.

Ümumilikdə, 2016-cı ildə məzunlardan 1475-i ali təhsil müəssisələrində, 262-si müxtəlif ali hərbi və xüsusi təyinatlı ali məktəblərdə, 252-si isə tam orta təhsil bazasından orta ixtisas məktəblərində oxumaq imkanı qazanıblar. Tam orta təhsil bazasından ali və orta ixtisas məktəblərində oxumaq hüququ qazanan məzunların sayı 1989 olub ki, bu da sənəd verənlərin 74,4 faizini təşkil edir.

Heydər Əliyev adına Hərbi Liseyə isə qəbul üçün sənəd vermiş 952 məzundan 152-si liseyin kursantı adını qazanıb. Bu təhsil müəssisəsinə qəbulda yüksək nəticələrə nail olmaq üçün ilk dəfə olaraq liseyə sənəd verəcək namizədlər müəyyənləşdirilib, onların liseylə tanışlıq ekskursiyaları, həmin namizədlər üçün dərsdən sonra əlavə məşğələlər təşkil edilib.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq muxtar respublikanın ümumtəhsil məktəblərində məktəbəhazırlıq qruplarının fəaliyyəti məqsədilə 171 qrupda 2835 nəfər 5 yaşlı şagirdin məktəbə cəlbi təmin olunub. Bununla yanaşı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarına uyğun olaraq, muxtar respublikanın 31 ümumtəhsil məktəbində X siniflər üzrə təmayülləşmiş pilot siniflər yaradılıb.

Şagirdlərin bilik və bacarıqlarının yoxlanılması məqsədilə test-sınaq imtahanlarının keçirilməsi bu il də diqqət mərkəzində saxlanılıb. Əvvəlki illərdən fərqli olaraq, bu il ilk dəfə olaraq ümumtəhsil məktəblərinin IV sinifləri də bu imtahanlara cəlb ediliblər.

Məlumatda bildirilir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncamına uyğun olaraq muxtar respublikamızda fəaliyyət göstərən muzeylərlə 200-dən çox məktəbin virtual əlaqəsi yaradılıb. Bu ilin noyabr ayında ilk dəfə olaraq Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbdə keçilən açıq dərs ümumtəhsil məktəbləri tərəfindən interaktiv olaraq izlənilib. Dekabr ayı ərzində Təhsil Nazirliyi və AMEA-nın Naxçıvan Bölməsi arasında yaradılan əməkdaşlıq əsasında ayda 1 dəfə olmaqla, interaktiv dərslərin keçilməsi layihəsi hazırlanıb.

Ümumtəhsil məktəblərində xarici dil və fiziki tərbiyə dərslərinin tədrisi vəziyyətinin yüksəldilməsi, şagirdlərin vətənpərvərlik tərbiyəsinə diqqətin artırılması məqsədilə hər iki fənni tədris edən müəllimlərin, hərbi rəhbərlərin və məktəb kitabxanaçılarının iştirakı ilə konfranslar keçirilib, görüləcək işlərin istiqamətləri müəyyənləşdirilib və lazımi köməkliklər edilib. Bununla yanaşı, ilk dəfə olaraq “Ən yaxşı fiziki tərbiyə müəllimi” müsabiqəsi elan olunub. Kitabxanalara oxucu cəlbinin və şagirdlərin bu sahəyə marağının artırılması məqsədilə bütün ümumtəhsil məktəblərində kitab sərgiləri təşkil edilib.

Muxtar respublikada son illər peşə təhsilinin inkişafı istiqamətində silsilə tədbirlər həyata keçirilir. Muxtar respublikanın emal, istehsal və xidmət sahələrində ehtiyac duyulan peşələrin öyrədilməsi diqqət mərkəzində saxlanılır. “Peşə təhsili müəssisələrində peşə ixtisaslarının siyahısı və tədris planlarının təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 25 avqust 2016-cı il tarixli Qərarı ilə 52 ixtisas seçilib. Haliyədə peşə təhsili müəssisələrində həmin ixtisaslardan 13-ü üzrə 726 müdavim təhsilini davam etdirir.

Həyata keçirilən tədbirlər 2017-ci ildə də davam etdiriləcək, təhsil sahəsində qarşıya qoyulan vəzifələr uğurla yerinə yetiriləcəkdir.

**✍ Muxtar MƏMMƏDOV**

## 2016-cı ilin yanvar-noyabr aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada 2016-cı ilin yanvar-noyabr aylarında 2 milyard 251 milyon 910 min 900 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,6 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,6 faiz artaraq 5042,3 manata çatmışdır.

* * *

Muxtar respublikada yaradılan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 859 milyon 555 min 800 manat həcmində məhsul istehsal edilmişdir ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricini 1,9 faiz üstələmişdir.

* * *

İnfrastruktur quruculuğu çərçivəsində cari ilin yanvar-noyabr ayları ərzində muxtar respublikada əsas kapitala 913 milyon 444 min manat həcmində investisiya yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 4,8 faiz çoxdur. Əsas kapitala yönəldilmiş investisiyanın 841 milyon 708 min manatı və ya 92,1 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2016-cı ilin yanvar-noyabr aylarında informasiya və rabitə xidmətlərinin həcmi 46 milyon 231 min 100 manat olmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,9 faiz çoxdur. Bu müddət ərzində mobil rabitə xidmətlərinin həcmi 38 milyon 487 min manat olmaqla bir il öncəki göstəricini 2,1 faiz üstələmişdir.

* * *

Qeyd olunan dövrdə 369 milyon 626 min 500 manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricini 6 faiz üstələmişdir. Bu dövr ərzində muxtar respublika üzrə diri çəkidə 21,7 min ton ət, 78,2 min ton süd istehsal edilmiş, 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,9 faiz, süd istehsalı 1,3 faiz artmışdır.



* * *

Əhali gəlirlərinin artımı davam edir. 2016-cı ilin yanvar-noyabr aylarında muxtar respublikada əhalinin gəlirləri 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz artaraq 1 milyard 616 milyon 439 min 500 manat, onun hər bir nəfərə düşən həcmi isə 0,2 faiz yüksələrək 3619,4 manat təşkil etmişdir.

* * *

2016-cı ilin yanvar-oktyabr aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 411,2 manat təşkil etmiş və bu göstərici əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,4 faiz artmışdır.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 dekabr 2016-cı il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 56908-ə çatmışdır ki, bunun da 48970-i və ya 86,1 faizi aktiv hesablardır. 2016-cı ilin yanvar-noyabr aylarında açılmış 14631 bank hesabının 14630-u aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 dekabr 2016-cı il tarixə 1191-ə çatdırılmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, cari ilin yanvar-noyabr aylarında muxtar respublikada 413 milyon 185 min 800 ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın həcmi son bir il ərzində 1,1 faiz artaraq 378 milyon 761 min 700 ABŞ dolları, idxalın həcmi 42,6 faiz azalaraq 34 milyon 424 min 100 ABŞ dolları təşkil etmiş, 344 milyon 337 min 600 ABŞ dolları həcmində müsbət saldo yaranmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmaqdadır. 2016-cı ilin yanvar-noyabr aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 39 milyon 798 min 900 manat məbləğində kreditlər verilmişdir. Verilmiş kreditlərin 10 milyon 13 min 600 manatı və yaxud 25,2 faizi qısamüddətli, 29 milyon 785 min 300 manatı və yaxud 74,8 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Bu dövrdə muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 5 milyon 566 min 300 manat olmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çoxdur.

* * *

2016-cı ilin yanvar-noyabr aylarında muxtar respublikaya 368 min 845 nəfər turist gəlmişdir ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricidən 4,9 faiz və ya 17248 nəfər çoxdur.

* * *

1 noyabr 2016-cı il tarixə muxtar respublikada əhalinin sayı bir il öncəyə nisbətdə 4890 nəfər və ya 1,1 faiz artaraq 448469 nəfər təşkil etmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Müasirləşən yaşayış məntəqələrimizin sayı artır

### *Yeni obyektlərin istifadəyə verildiyi Hacıvar və Badaşqan kəndlərindən reportaj*

***Ölkəmizin ən qocaman mətbuat orqanlarından biri olan "Şərq qapısı"nda işlədiyim 15 ildən artıq bir müddət ərzində bu qəzet mənim həm də muxtar respublikanın bütün yaşayış məntəqələrini, o cümlədən ən ucqar dağ və sərhəd kəndlərini yaxından tanımağıma, bir-birindən fərqli xarakterli insanlarla görüşməyimə, yol baxımdan 1-2 kilometr məsafədə yerləşən kəndlərin bir-birindən gözəl, bəzən də fərqli adət-ənənələri ilə tanış olmağıma imkan verib. Gördüklərimdən çıxardığım nəticə bir olub: harada yaşamasından asılı olmayaraq, torpağa bağlılıq, dünənə ehtiram, sabaha cavabdehlik hissi, insana qayğı varsa, orada bütün çətinliklərə qalib gəlmək, yeni həyat qurmaq, böyük uğurlar qazanmaq olar.***

Bu hissləri doğma Naxçıvanı sevən hər bir insan yaşaya bilər. Fəxrlə deyim ki, bəhs etdiyim dövr ərzində həmin duyğuları, bəlkə də, yüz dəfə yaşamışam. İstər paytaxt şəhərimiz Naxçıvanda, istərsə də ucqar dağ və sərhəd kəndlərimiz Nürgütdə, Şadada, Teyvazda, Gərməçataqda, Yuxarı Buzqovda...

Son vaxtlar Babək rayonunun Məzrə, Ordubad rayonunun Baş Dizə kəndlərində bu hissləri yenidən yaşadım. Ardınca isə paytaxt şəhərimizin bir addımlığında yerləşən Hacıvar və Badaşqan kəndlərində.

Dəfələrlə Babək rayonunun bu qol üstündə yerləşən kəndlərində olmuşam, bu yoldan keçmişəm. Hər keçdikcə gördüyüm yeniliklər qəlbimi dağa döndərib. Şəhərlə kənd arasındakı fərqin aradan qaldırılmasına, insanların neçə illər yığışıb qalmış problemlərinin həllinə yönəlmiş tədbirlər, sözün həqiqi mənasında, şəxsən mənim üçün artıq adi görünsə də, bu işlərin təməlində dayanan xeyirxah missiyanın çətinliklərlə başa gəlməsini düşünmüşəm. Elə o anda da fikirləşmişəm ki, bu gün heç bir naxçıvanlı "blokada" sözü ilə razılaşmır; çünki nail olduğumuz bugünkü həyat səviyyəsi "blokada şəraitində yaşamaq" ifadəsinin üstündən böyük bir xətt çəkib...

* * *

Babək rayonunun Hacıvar və Badaşqan kəndləri yenidən məni həmin duyğuların "burulğanına" saldı. Bu yaşayış məntəqələrində dekabr ayının 9-da sosial obyektlər istifadəyə verilib. Kənd yolu yenidən qurularaq, yeni kənd mərkəzi tikilərək istifadəyə verilib.

Müasir tələblər səviyyəsinə gətirilən 4,7 kilometrlik kənd yolu genişləndirilib, asfalt örtük salınıb, kənddaxili məhəllə yolları da yenidən qurulub. Yolun üzərində 68 su keçidi qoyulub, 1250 metr beton kanal çəkilib. Kənd tam orta məktəbinin direktoru Səməyə Xəlilova deyir ki, əgər Naxçıvanın bugünkü simasını əks etdirən şəkillərə 15-20 il bundan əvvəl baxsaydıq, deyərdik ki, bu, xəyaldır, yuxudur. Yəni diyarımızın indiki mənzərəsinə inanmazdıq. İnanmazdıq ki, Naxçıvan belə sürətlə inkişaf edəcək, insanların rahat yaşaması və işləməsi üçün hərtərəfli şərait yaradılacaq. Ancaq atalarımız demişkən, görünən dağa bələdçi lazım deyil. Bu gün bizim kənddə gördüklərinizi muxtar respublikanın kəndlərinin əksəriyyətində görə bilərsiniz. Kənd və xidmət mərkəzləri tikilib, səhiyyə müəssisələri, məktəblər tamamilə yenilənib. Yeri gəlmişkən onu da deyim ki, yeni məktəb binasının sevincini hacıvarlılar hələ 2005-ci ildə yaşayıblar. Bu gün muxtar respublikada həyata vəsiqə alan yeni obyektlərdə müasir iş şəraiti yaradılır. Maddi-texniki baza gücləndirilir, müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchizat diqqət mərkəzində saxlanılır. Bütün bunlar isə insanların məskunlaşmasını gücləndirir, onların fəal həyat mövqeyini düzgün formalaşdırır. Çəkilən zəhmət isə hər bir naxçıvanlı tərəfindən yüksək dəyərləndirilir.

Kənd ağsaqqalları ilə yeni kənd mərkəzinin həyətində görüşürük. Məlumat üçün bildirək ki, mərkəzdə kənddə fəaliyyət göstərən dövlət qurumları üçün müasir iş otaqları ayrılıb. Binanın birinci mərtəbəsində rabitə evi, polis sahə məntəqəsi, kitabxana, baytarlıq və feldşer-mama məntəqələri, ikinci mərtəbədə isə Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, statistika otağı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə və 44 yerlik iclas zalı yerləşir.



Rabitə evində 384 yerlik müasir ATS quraşdırılıb, dayanıqlı rabitə və sürətli internet xidmətinin göstərilməsi təmin edilib. Poçt bölməsində müvafiq xidmətlərlə yanaşı, əhaliyə bank xidməti də göstərilir. Kənddə həyata keçirilən kompleks quruculuq tədbirləri səhiyyə sahəsini də əhatə edib. Kənd mərkəzində feldşer-mama məntəqəsi üçün 4 otaq ayrılıb, məntəqə lazımi tibbi avadanlıqlarla təchiz olunub.

Kənd ağsaqqalı Əkbər Quluzadənin sevincini öz sevincimiz kimi qəbul edirik:

– Naxçıvanın bir addımlığında yaşasaq da, Hacıvarda sovet dönəmində gözəgələn bir obyekt inşa olunmayıb. Sağ olsun dövlətimizi. Bu gün Hacıvar muxtar respublikanın ən gözəl kəndlərindən birinə çevrilib. Başa düşürük ki, bütün bunlar hamısı bizim üçün, bizim yaxşı yaşayışımız üçündür. Buna görə də biz də çalışacağıq ki, təsərrüfatlarımızda bol məhsul yetişdirək, iqtisadiyyatımızı inkişaf etdirək və bununla bizə göstərilən qayğıya cavab verək.

Həmin gün hacıvarlılar xidmət mərkəzinin də sevincini yaşayıblar. Mərkəzdə bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları olmaqla, 2 mağaza fəaliyyət göstərir. Mağazalarda yerli məhsulların satışına daha çox üstünlük verilir. Xidmət mərkəzində kənd sakinlərinin fərdi təsərrüfatlarında istehsal etdikləri məhsullar çoxluq təşkil edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov aparılan quruculuq işlərindən sonra Hacıvar kəndinin muxtar respublikanın abad yaşayış məntəqəsinə çevrildiyini bildirərək deyib: "Dövlətimiz tərəfindən Hacıvar kəndində həyata keçirilən tədbirlər, aparılan quruculuq işləri sakinlərin rahat yaşayışına hesablanıb. Tikilənləri, qurulanları qorumaq, onlardan səmərəli istifadə etmək və ölkəmizin inkişafına töhfə vermək isə sakinlərin qarşısında duran vəzifələrdir. Hər kəs çalışdığı sahədə öz işini layiqincə yerinə yetirməli, torpaqlar əkilməli, təsərrüfatlar genişləndirilməli, dövlət qurumları bundan sonra da səmərəli fəaliyyət göstərməli, dövlət-xalq birliyinin nəticəsi olaraq sakinlər ölkəmizin inkişafında pay sahibi olmalıdırlar".

* * *

Məlumat üçün bildirək ki, kənddə bir sıra digər quruculuq işləri də görülüb. 2500 metr rabitə, eləcə də 700 metr fiber-optik kabel xətti çəkilib. Kəndin elektrik və qaz sistemləri də yenilənib, 3250 metrlik elektrik xətti çəkilib, transformator yarımstansiyası əsaslı təmir olunub, 2500 metrlik müxtəlif diametrli qaz xətlərində təmir-bərpa işləri aparılıb. Kənddə suvarma suyuna olan tələbatı ödəmək üçün yeni suvarma su xətti çəkilib. Yol kənarlarında salınmış yaşıllıq zolaqlarında suvarma sistemləri quraşdırılıb.

* * *

Dekabrın 9-da Badaşqan kənd xidmət mərkəzinin də açılışı olub. Burada bərbərxana, qadın gözəllik salonu, ərzaq və təsərrüfat malları mağazaları fəaliyyət göstərir. Xidmət mərkəzinin tikintisi zamanı kənddə abadlıq tədbirləri də görülüb, rabitə xətləri yenilənib, yaşıllıq zolaqlarını suvarmaq üçün tədbirlər həyata keçirilib.

Oxucuların nəzərinə çatdıraq ki, muxtar respublikanın ən kiçik yaşayış məntəqələrindən biri olan Badaşqan Yarımca kənd inzibati ərazi dairəsinin tərkibindədir. Yarımcada da kompleks quruculuq tədbirləri həyata keçirilib, aprel ayında burada kənd və xidmət mərkəzlərinin, səhiyyə məntəqəsinin, yenidən qurulan tam orta məktəbin açılışları ilə bu yaşayış məntəqəsi də müasirliyə qovuşub. Bu paydan Badaşqan kəndinə də düşüb. Badaşqanda 141 təsərrüfatda 436 nəfər yaşayır. Kənd adamları təsərrüfatın müxtəlif sahələri ilə məşğul olurlar. Torpaq bu gün onların daimi iş yerinə, ruzi mənbəyinə çevrilib. Kənd sakini Vahid Gözəlov deyir ki, həmin günü badaşqanlılar uzun müddət unutmayacaqlar. Kənd sakinləri gördülər ki, muxtar respublikamızda böyüklüyündən, kiçikliyindən asılı olmayaraq, bütün yaşayış məntəqələri dövlətimizin hərtərəfli qayğısı əhatəsindədir. Mərhələ-mərhələ həyata keçirilən quruculuq tədbirləri Badaşqanın da simasını dəyişdirib. Yolumuz yenilənib, xidmət mərkəzi badaşqanlıları alış-veriş etmək üçün Naxçıvan şəhərinə getmək əziyyətindən qurtarıb.

* * *

*Bu kəndlərdə gördüyüm müasirliyin məndə yenidən yaşatdığı hisslərlə, Hacıvar və Badaşqan kəndlərində sakinlərlə söhbətlərin xoş təəssüratları ilə Naxçıvan şəhərinə qayıdıram. Qəlbimdən keçənlərlə, yəqin ki, siz də razılaşarsınız: belə təəssüratları hələ çox yaşayacağıq. Bu yol Naxçıvanın neçə illik yoludur. Yolumuzun uğurları daha çox olacaq.*

**Muxtar MƏMMƏDOV**

Xalq təqvimi



# Böyük çillə, nar çillə, Ağ gül üstə qar çillə

***Qış fəslinin, belə demək mümkünsə, əsas atributlarından biri qardır. Qar bərəkət, gələn ilin məhsul bolluğu deməkdir. Payız əkinlərinin qalın qarla örtülməsi onu həm şaxtadan qoruyur, həm də yazda bol su ilə təmin edir. Bunu aşağıdakı folklor nümunəsi də ifadə edir:***

***Böyük çillə, nar çillə,***
***Ağ gül üstə qar çillə.***
***Taxıllara yorğan ol,***
***Bağçalara bar, çillə.***

Qar örtüyünün faydalı olması “Qar olmasa, bar olmaz”, “Qar ili, var ili” kimi atalar sözlərində də əks olunub.

Qış fəslində gecə və gündüz zamanı havanın necə keçməsi kimi əlamətlər ilin ümumi vəziyyəti haqqında fikir söyləməyə imkan vermişdir. Xalqımızın müşahidələrinə görə, qış fəslində gecələr ayaz, gündüzlər dumanlı, buludlu keçərsə, bu, ilin yaxşı keçməyəcəyinə işarədir. Əksinə, qışda gündüzlərin ayaz, gecələrin buludlu, dumanlı keçməsi ilə isə ilin xoş keçib insanlar üçün faydalı olacağına inanılırdı.

Qış nə dərəcədə sərt keçsə də, xalqımız onun gəlişini bayram kimi qarşılayıb, onun gəlməsi ilə bağlı müxtəlif adətlər, inam və mərasimlər yaradıb. Xalqımız, maraqlıdır ki, yalnız qışın və yazın qarşılanması üçün mərasimlər təşkil edib. Başqa sözlə desək, ulularımız qışı xoş qarşıladıqları kimi, onu təntənəli şəkildə də yola salıblar. Ümumiyyətlə, xalqımız qışa çətinlik kimi baxsa da, bu fəsil həm də əyləncə, nağıl, aşıq məclisləri, qadınların toxuculuq işləri ilə də yadda qalardı. İnsanlar bütün yorğunluğunu qış mövsümündə atar. Qış görüləcək işlərin az olması səbəbi ilə istirahət və əyləncə mövsümü hesab edilirdi.

Xalqımız qış fəslini xalq təqviminə uyğun olaraq “çillə” adı ilə üç yerə bölüb. Bunlardan böyük çillə 40 gün (21 dekabr-30 yanvar), kiçik çillə 20 gün (31 yanvar-20 fevral), ala çillə və ya ala çolpav (boz ay da deyilir) isə bir ay (20 fevral-20 mart) davam edir.

Çillə bayramı, çillə gecəsi qış başlandığı gün, yəni dekabrın 20-də qeyd edilir. Çillə gecəsi ilin 365 gecəsinin ən uzunu və qışın başlanğıc gecəsidir. Mənbələrdə qeyd edilir ki, “çillə” “çehil” sözündəndir, mənası “qırx” deməkdir. Xalq arasında “ağırlıq, dərd, kəramət, xəstəlik” mənalarında da başa düşülür.

Çillə bayramı xüsusi qeyd edilər, bu bayrama hələ bir neçə gün əvvəldən hazırlıq görülərdi. Bayram günü, demək olar ki, bütün evlərdə çillə qarpızı kəsilərdi. Hər kəs çalışardı ki, həmin gün evində çillə qarpızı olsun. Qarpız çillə gecəsinin ən gözəl payı hesab olunur. Əksər ailələr belə qarpızları əvvəlcədən alıb saxlayardılar. Etnoqrafik materiallara əsaslanaraq demək olar ki, Naxçıvanın Arazboyu kəndlərinin əksəriyyətində çox da böyük olmayan, qalınqabıqlı xüsusi qarpız növü əkilmişdir ki, belə qarpızları uzun müddət, hətta Novruza qədər saxlamaq olurmuş. Çilləyə saxlanılacaq qarpız tam yetişməmiş və saplaqlı olsa, daha yaxşı qalar. Çillə qarpızı xarab olmasın deyə, onu ot və ya samanın içərisində saxlayırdılar.

Çillə qarpızına bolluq, bərəkət rəmzi kimi baxılır. Etnoqrafik materiallara görə, çillə gecəsində qarpız kəsmək qışı xoş qarşılamaqla bərabər, ondan qorxmamağa işarədir. Digər məlumata görə, çillədə qarpız kəsəndə deyərlər ki, “ay qarpız, səni mən necə kəsirəmsə, çilləni də belə tez kəsim”. Yəni qışa, şaxtaya yenilməyim, onu dərdsiz, bəlasız başa vurum. Bəzi rayonlarda (Ordubad, Şərur) yaşlı insanların verdiyi məlumata görə, çillədə qarpız kəsilir ki, günümüz qırmızı, yəni günəşli olsun. Çillə qarpızı kəsilən vaxt xalq arasında niyyətetmə adəti də icra olunur. Bu zaman qarpızın baş tərəfini kəsərək dörd yerə ayırıb atırlar. Əgər ikisi eyni rəngdə – ağ və ya yaşıl olarsa, niyyət qəbul edilmiş hesab olunur. Bu da belə bir fikir söyləməyə əsas verir ki, çillə gecəsi qarpızın qabığının bir hissəsinin dörd yerə bölünüb niyyət tutub atılması, bəlkə də, dörd fəsillə, atılan qarpız qabıqlarının rənglərinə uyğun (ağ və yaşıl) niyyətin qəbul olması isə fəsillərin əlamətləri ilə əlaqədardır.

Bundan başqa, qarpız kəsib yeddi evə pay göndərilirdi. Çillə bayramı günü nişanlı qızların, təzə gəlinlərin bayram görüşünə (Çillə bayramına) gedərdilər. Bayramlıqlar içərisində çillə qarpızı xüsusi yer tutardı.

***Bu qarpız, çilə qarpız,***
***Düşübdür dilə qarpız.***
***Yığılıb xonçalara***
***Gedir yargilə qarpız.***

Şərur rayonunun bəzi kəndlərindən toplanmış materiallara görə, nişanlı qızlara qarpız aparanda onun yanına bıçaq da qoyarmışlar. Qarpız aparılan bıçaqla kəsilər və sonra yenidən oğlan evinə qaytarılarmış.

Ordubad bölgəsində isə həmin gün evdə un yeməkləri (xəşil, tərək, quymaq), hədik bişirilər, qovurğa qovrular, qovut çəkilərmiş.

Etnoqrafik materiallara əsaslanaraq demək olar ki, çillədə qarpız olmadıqda belə, başqa bir meyvə kəsilməlidir. Xalq arasındakı inanca görə, kim bu gecə çoxlu meyvə yesə, o, bütün qışı xəstələnməz. Ordubad bölgəsinin bəzi kəndlərində mövcud olan adətə əsasən, çillədə qarpız yoxdursa, ürəklər sərin olsun deyə, qatıq yeyərdilər. Həmin gecə süfrəyə adları “q” hərfi ilə başlayan nemətlər düzülərmiş: qarpız, qovun, qatıq, qovurğa, qaysava, qovurma, qovut və sair.

Qeyd edək ki, qarpızın qırmızı rəngdə olması Günəşin rəmzi kimi sayıla bilər ki, bu da istiliyi çağırmaq anlamı ilə bağlıdır.

Etnoqrafik materiallara görə, xalq təqviminə uyğun olaraq böyük çillənin birinci ongünlüyü (dekabr ayı) “qarı qatıldı küfləyə”, yanvar ayının əvvəli isə “qarıboğan” adlanır. Böyük çillənin sonlarına isə “qurdun insana yerikliyən dövrü” deyilmişdir. Bu da onunla əlaqədardır ki, ilin bu dövründə qurd (canavar) ac qaldığı üçün insanlara da hücum edir. Qışın bərk şaxtalı günlərinə həm də “qışın qulan (atın balası) salması” dövrü deyilir.

Çillə ilə bağlı adətlərdən bəhs edərkən onu da qeyd etməliyik ki, bəzən bu bayram Zərdüştlüklə əlaqələndirilir. Bu, tamamilə yanlış fikirdir. Çillə bayramı xalq təqvimi ilə bağlı keçirilən bayramlardan biridir.

Naxçıvanda qışın bəzəyi olan qarın əhali arasında bilinən adları olmuşdur. Bunlar quşbaşı, çobanyarması, kəpək, qaryeyən, püşək və sairdən ibarətdir.

Naxçıvanda qışla bağlı təqvim adətləri tarixin ilkin dövrlərində formalaşmaqla bir sıra xüsusiyyətlərinə görə digər türk xalqları ilə ortaq cəhətlərə malikdir.

**Asəf ORUCOV**
*tarix üzrə fəlsəfə doktoru*

***Bu günlərdə paytaxt Bakı şəhərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş, Azərbaycan Dövlət İqtisad Universitetinin Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə birgə təşkil etdiyi “Vergilər” mövzusunda onuncu olimpiada keçirilib.***

# Muxtar respublikamızın ali məktəb tələbələri olimpiadadan qələbə ilə qayıdıblar

Artıq ənənə halını alan, Vergilər Nazirliyinin təbliğat və maarifləndirmə sahəsində təhsil müəssisələri ilə əməkdaşlığını inkişaf etdirməyə, tələbələrin elmi-nəzəri biliklərini möhkəmləndirməyə xidmət edən olimpiadada bu il ölkənin 15 ali məktəbinin 300-dək tələbə və magistrantı iştirak edib. Naxçıvan Dövlət Universitetinin tələbələri olimpiadadan qələbə ilə dönüblər.

Olimpiada iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Azərbaycan Dövlət İqtisad Universitetinin foyesindəki büstü önünə gül dəstələri qoyaraq ulu öndərin əziz xatirəsini ehtiramla yad ediblər. Test üsulu ilə təşkil olunmuş olimpiada zamanı iştirakçılar 2 saat ərzində Vergilər Nazirliyinin Tədris Mərkəzində müvafiq test bazası əsasında hazırlanmış sualları kompüter vasitəsilə onlayn rejimdə cavablandırıblar. Tələbələrə Vergi Məcəlləsinin ümumi və xüsusi hissələrini əhatə etməklə hər biri ayrıayrılıqda 45 sual, 10 məsələ təqdim edilib. Hər bir tələbə üçün fərdi sual bazası tərtib olunub. Nəticələr iştirakçı ali məktəblərin təmsilçilərindən ibarət münsiflər heyətinin iştirakı ilə Tədris Mərkəzinin mütəxəssislərinin nəzarəti altında xüsusi kompüter proqramları vasitəsilə qiymətləndirilib.

Obyektiv və gərgin mübarizə şəraitində keçən olimpiadada Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsinin İqtisadiyyat ixtisası üzrə dördüncü kurs tələbəsi Mahir Mehdiyev 100 sualdan 96 suala düzgün cavab verərək birinci yerin qalibi olub. Universitetin həmin ixtisas üzrə üçüncü kurs tələbəsi Zeynalabdin Cəfərov isə 93 sualı düzgün cavablandırmaqla üçüncü yerə layiq görülüb. Naxçıvan Dövlət Universitetinin İqtisadiyyatın tənzimlənməsi ixtisası üzrə II kurs magistrantı Qənbər Məmmədli 87 sualı cavablandıraraq üçüncü yerdə qərarlaşıb.

Muxtar respublikada fəaliyyət göstərən digər ali məktəb – “Naxçıvan” Universiteti də olimpiadada uğurla təmsil olunub. Universitetin tələbələri 300 tələbə arasında yeddinci yeri tutaraq bu ali təhsil ocağının 15 universitet arasında dördüncü yerdə qərarlaşmasına müvəffəq olublar.

Olimpiadanın yekununda birinci yeri tutmuş tələbə və magistrantların müəllimləri, o cümlədən Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat kafedrasının müəllimi İsmayıl Bağırov da xüsusi diplomla təltif olunub.

**Mehriban SULTAN**

# Yeni Azərbaycan Partiyasının üzvləri arasında keçirilən birincilik başa çatıb



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkil etdiyi futzal üzrə muxtar respublika birinciliyi başa çatıb. Yeni Azərbaycan Partiyasının üzvləri arasında keçirilən birincilikdə 8 komanda mübarizə aparıb.

Birincilik Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində olimpiya sistemi üzrə keçirilib. Beynəlxalq Futzal Federasiyasının qaydalarına uyğun olaraq təşkil edilən birincilikdə futzalçılar hər hissəsi 20 dəqiqə olmaqla, 40 dəqiqəlik müddətdə qalibi müəyyənləşdirməyə çalışıblar.

Yarışın nəticəsinə gəlincə, həlledici qarşılaşmada “Naxçıvan” və “Şərur” komandaları qələbə uğrunda mübarizə aparıblar. Daha baxımlı oyun sərgiləyən Şərur futzalçıları meydanı 5:4 hesablı qələbə ilə tərk ediblər. Üçüncülük matçında isə “Ordubad” komandası “Kəngərli” komandası ilə qarşılaşıb. Görüş Kəngərli təmsilçisinin 9:5 hesablı qələbəsi ilə yekunlaşıb.

Qalib komandaların futzalçıları diplom, kubok və hədiyyələrlə mükafatlandırılıblar.

# Güləş birinciliyi keçirilib

Naxçıvan Şəhər Uşaq-gənclər idman məktəbinin zalında Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə 2003-2005-ci illər təvəllüdlü güləşçilər arasında birincilik keçirilib.

50-dən çox pəhləvanın mübarizə apardığı yarışın açılış mərasimində çıxış edən Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərov yarışın qaydaları haqqında idmançılara məlumat verib və onları bayram münasibətilə təbrik edib.

Beynəlxalq Güləş Federasiyasının qaydalarına uyğun olaraq təşkil edilən birincilikdə idmançılar 10 çəki dərəcəsində mübarizə aparıblar. Yekun nəticəyə əsasən, Nicat Ocaqquliyev (26 kiloqram), Mirsamir Seyidov (32 kiloqram), Uğur Məmmədov (35 kiloqram), Fərid Rzayev (38 kiloqram), Kəramət Xudiyev (42 kiloqram), Yasin Cəfərov (47 kiloqram), Heydər Heydərov (53 kiloqram), Ayxan İsmayılov (59 kiloqram), Rəvan Bayramov (66 kiloqram) və Ramazan Əliyev (73 kiloqram) öz çəki dərəcələrində bütün rəqiblərini üstələyərək birinciliyin qalibi olublar.

Sonda qalib idmançılara diplomlar təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 958